**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№** 087/493

**Bakı şəhəri** "26" dekabr **2025-ci il**

**Salyan və Göygöl rayonları ərazisində yerləşən heyvan bazarlarına tətbiq edilmiş məhdudiyyətin aradan qaldırılması haqqında**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) 2025-ci il 15 oktyabr tarixli 062/468 nömrəli "Ölkə ərazisinin xarici ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması üçün epizootoloji nəzarətin gücləndirilməsi haqqında" qərarına əsasən, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının son dövrlərdə yaydığı rəsmi məlumatlar nəzərə alınmaqla, respublika ərazisində bioloji təhlükəsizlik tədbirlərinin gücləndirilməsi məqsədilə heyvan bazarlarının fəaliyyəti 2025-ci il 25 oktyabr tarixindən etibarən müvəqqəti dayandırılmışdır.

Salyan rayonu, Noxudlu kəndi ərazisində yerləşən və Göygöl rayonu, Yeni Qızılca kəndi ərazisində yerləşən heyvan bazarlarında Agentliyin Kollegiyasının 2024-cü il 17 oktyabr tarixli 50 nömrəli qərarı ilə təsdiq edilmiş "Heyvan bazarlarına dair baytarlıq-sanitariya norma və qaydaları"nın (bundan sonra – Qaydalar) tələblərinə uyğun olaraq tikinti və yenidənqurma işləri aparılmış, heyvan bazarlarında aparılmış yenidənqurma işlərinin qiymətləndirilməsi məqsədilə Agentliyin 2025-ci il 12 dekabr tarixli 3-2ü-117 nömrəli əmri ilə yaradılmış işçi qrupu tərəfindən sözügedən heyvan bazarlarında yerində baxış və qiymətləndirmə həyata keçirilmişdir. Aparılmış qiymətləndirmələrin nəticələrinə əsasənhəmin heyvan bazarlarında Qaydaların tələblərinin təmin edildiyi, bioloji təhlükəsizlik və dövlət baytarlıq nəzarətinin həyata keçirilməsi üçün zəruri şəraitin yaradıldığı müəyyən edilmişdir.

Qeyd edilənlər və aparılmış qiymətləndirmələrin nəticələri nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-2-ci və 3.0.33-4-cü yarımbəndlərinə əsasən

**QƏRARA ALIRAM:**

**1.** Agentliyin 2025-ci il 15 oktyabr tarixli 062/468 nömrəli qərarı ilə respublika ərazisində tətbiq edilmiş müvəqqəti məhdudiyyətin tətbiqinə səbəb olan epizootoloji risklərin aradan qaldırılması məqsədilə görülmüş tədbirlər, habelə Agentliyin Kollegiyasının 2024-cü il 17 oktyabr tarixli 50 nömrəli qərarı ilə təsdiq edilmiş "Heyvan bazarlarına dair baytarlıq-sanitariya norma və qaydaları"na uyğun olaraq aparılmış yenidənqurma işlərinin Agentliyin 2025-ci il 12 dekabr tarixli 3-2ü-117 nömrəli əmri ilə yaradılmış işçi qrupu tərəfindən müsbət qiymətləndirildiyi nəzərə alınaraq, Salyan rayonu, Noxudlu kəndi ərazisində yerləşən fiziki şəxs İsmayılov Elşad Seyfulla oğlu məxsus və Göygöl rayonu, Yeni Qızılca kəndi ərazisində yerləşən fiziki şəxs

ƏSLİ İLƏ DÜZDÜR
Abbasov T.K.
26.12.2025

İsmayılov Zaur Nəsir oğluna məxsus heyvan bazarlarına tətbiq edilmiş məhdudiyyət aradan qaldırılsın.

2. Sözügedən heyvan bazarlarının fəaliyyətinə 2025-ci il 26 dekabr tarixindən etibarən icazə verilsin.

3. Agentliyin Şirvan–Salyan regional bölməsi Salyan rayonu, Noxudlu kəndi ərazisində yerləşən fiziki şəxs İsmayılov Elşad Seyfulla oğluna məxsus, Gəncə–Daşkəsən regional bölməsi isə Göygöl rayonu, Yeni Qızılca kəndi ərazisində yerləşən fiziki şəxs İsmayılov Zaur Nəsir oğluna məxsus heyvan bazarlarında baytarlıq-sanitariya və bioloji təhlükəsizlik tədbirlərinə daimi nəzarətin həyata keçirilməsini təmin etsin.

4. Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin və görülən işlər barədə ictimaiyyətin məlumatlandırılmasını həyata keçirsin.

5. Agentliyin Aparatının Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsi tərəfindən fiziki şəxs İsmayılov Elşad Seyfulla oğluna və fiziki şəxs İsmayılov Zaur Nəsir oğluna məxsus heyvan bazarlarına tətbiq edilmiş məhdudiyyətin aradan qaldırılması barədə məlumat verilsin.

6. Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentliyin struktur bölmələrinə, eləcə də aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

7. Qərar imzalandığı gündən qüvvəyə minir.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** — **Qalib Əbdüləliyev**

Chief Veterinary Officer

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
26.12.2025